## *Şəhidlər balladası*

Mərd Şəhidlər xiyabanı...
Bir axşam çağı
Seyrə daldım sinəm üstə
Çəkilən dağı.
Yer altında səslər gəldi
Birdən elə bil:
-Çox gəlirsən bu ocağa,
Yaxşı dinlə bir!...
Ölməmişik, sağdan sağıq,
Yaşayırıq biz!
Xəyalımın ağuşunda,
Qatlayaraq diz,
Ehtiramla təzim edib
Əydim qəddimi,
Şəhidlərlə söhbət etdim
Dirilər kimi...
Bir qəbirdən səs yüksəldi:
-İyirmi yanvar
həmişəlik ürəyimdə
Sualtək qalar!..
Əliyalın çıxmışdım mən, -
Azadlıq! – deyə,
Bəs o tanklar sinəm üstdən
Keçdilər niyə!!
...Qulağımı şəkləyirəm
Başqa bir qəbrə,
Deyir: - Düzü, məhəttələm
Səndəki səbrə!-
Necə məni burda qoyub
Ömr eləyirsən?!
Sən arxayın su içirsən,
Çörək yeyirsən?!
...Başqa bir qəbir tərpədərək
Bu an daşını,
Gileylənir kövrək-kövrək:
-Qan qardaşını
Tənha qoyub yer üstündə

Necə yatırsan?!
Öz yuxuna neçə şirin
Yuxu qatırsan?!
...Başqa qəbir titrəyərək
Suallar verir:
-Mən səninçin qurban getdim,
Məramın nədir?
Azadlıqçın mən canımı
Qurban etmişəm.
Mən tankların tırtılını
Al qan etmişəm.
...Başqa qəbir nərə çəkir
Bu an kənardan:
-Ay Azəri övladları,
Ay Azərbaycan,
Axı necə dözürsünüz
Bu müsibətə?!
Haqq yerini tapacaqdır
Deyin, nə vədə?!
...Elə bir-bir qəbirlərdən
Səslər dillənir,
Bax, beləcə hey üstümə
Tə`nələr enir.
-Kimdir mənə sual verən,
Əzizim, de bir?!
Səslər gəlir hər qəbirdən:
-Adım Şəhiddir!
-Adımızı bir-bir çəkin...
-Yox! – söyləyirlər. –
Adımız bir! – Biz Şəhidik,
Şəhid! – deyirlər.
Qoy dinləsin xalq bizi:
Bu ölməz himnimizi-

Torpağımız yolunda üzümüz hər vaxt ağdır,
Mələksima ruhumuz həmişə sağdır, sağdır!
Üstümüzdə ucalan üç rəngli bir bayraqdır,
Azərbaycan torpağı dinimiz, imanımız,
Yerdə qalmaz qanımız! Yerdə qalmaz qanımız!

Biz getsək də dünyadan, məramımız qalandır,
Daş qavallı Qobustan laylamızı çalandır,
Xəzərin xışıltısı həmdəmimiz olandır,
Gecə-gündüz pıçıldar: - Qoymarıq sizi yalqız!
Yerdə qalmaz qanımız! Yerdə qalmaz qanımız!

Biz Bakının başında qeyrətin papağıyıq.
Dağ üstünü yenilməz bir əbədi dağıyıq,
Azərbaycan xalqının əzmiyik, vüqarıyıq,
Ulumuz – bu torpağa qurban getdi  canımız!
Yerdə qalmaz qanımız! Yerdə qalmaz qanımız!

Ölməmişik, sağıq biz, inanmayan hər gecə,
Qəbrimiz üstə gəlib, dinləsin bircə-bircə
Hərəmizin sözünü, danışaq ürəyincə,
Eşitsin ki, deyirik: - sizədir gümanımız!
Yerdə qalmaz qanımız! Yerdə qalmaz qanımız!

Bir qüvvə xalqımızı ahımıztək oyatmaz!
Bu yurdun sinəsində biz dağıq çalın-çarpaz!
Bu dastanı yazmağa şair qüdrəti çatmaz, -
Tarixin öz əlilə yazılır dastanımız!
Yerdə qalmaz qanımız! Yerdə qalmaz qanımız!

Ziya H. Şəhidlər Balladası  // Bakı. - 1992. – 17 yanvar.